Ədəbiyyat qəzeti

# Sən varkən çiçəklər niyə açmasın ki...



**İbrahim TƏNƏKƏÇİ**

**Çağdaş türk ədəbiyyatının görkəmli nümayəndələrindən biri - İbrahim Tənəkəçi 1970-ci ildə Kastamonuda dünyaya gəlib. İlk şeirləri Türkiyənin müxtəlif qəzet və jurnallarında dərc olunub. Ondan çox şeir kitabının müəllifidir. 2008-ci ildə Türkiyə Yazarlar Birliyi tərəfindən "İlin şairi" seçilmiş və mükafat almışdır.**

## ƏLLƏRİNƏ SAĞLIQ, TANRIM

Əllərinə sağlıq, Tanrım,
gözəl alınmış dünya -
dağı - dağ, düzü - düz,
gecəsi - gecə, gündüzü -
gündüz.
Sulamaq istəyirəm
dənizlərini,
tozlanmasınlar deyə,
yemləmək istəyirəm
gülləri
ac qalmasınlar deyə,
milyardlarla
şeir yazmaq istəyirəm
quşların qanadlarına -
milyardlarla
ulduzlara aparsınlar deyə...
Əllərinə sağlıq, Tanrım,
gözəl alınmış dünya -
qışı - qış, yazı - yaz,
torpağı - qara,
buludu - bəyaz,
çiçəyi açır,
arısı uçur...
Əllərinə sağlıq, Tanrım,
Leyla da gözəl alınmış -
Kaşkə bir az da yaşasaydım,
Kaşkə bir az da yaşasaydım...

## MƏKTUB

Budur,
yenə günün belini
qırır axşam
və sən
bir çölə bənzəyirsən
günün bu saatında,
çıxarmamısan əynindən
güllü əlbisəni.

Xatırla,
uşaq ikən qorxardın
çeçələ barmağının
bir quş kimi
əlindən uçub gedəcəyindən,
mən isə,
başqa uşaqlara
bənzəyərdim,
bir çinlinin
bir çinliyə bənzədiyi kimi...

Çaşqınam,
buralar açmır könlümü,
tuhafdı hər şey:
dənizi sel basır - heyrət,
və bir taksiyə
sığmır şəhər...

Burada
yatalaq kimidi bahar -
saç olsa -
tumarlaya bilməzsən,
gül olsa -
qoxlaya bilməzsən,
dodaq olsa -
öpə bilməzsən...
Yoxsan...
Həyətdə
göyərçin ovlayır pişik,
qızlar gülüşür,
bir yetim
bezdən ana düzəldir özünə -
öpmək üçün...

## SEVDAMIZ

Mən
bölüşülən xoşbəxtliyi
sevirəm,
sevirəm
bitməz, tükənməz dənizlər kimi...

Nə qədər
xatirəm vardı,
yandırdım bütün gecə,
bir Ay bildi,
bir də ulduzlar...
Kül olmuş
xəyalın düşdü suya -
öpdüm gözlərindən...
Yanmışdın,
səni mən
yenidən gözəl yapdım!

Gur və qalın səsim vardı,
o ulduz
uçqunundan
sonra batdı,
əllərim
damdı əllərinə - utandın -
demək ki, xatırladın,
ilk rəsmi
buludlara çizilən
gözlərinə nəm düşdü,
üşüdün,
isitdim səni.

Mən
uzaqdan-uzağa
sevməyi xoşlayıram,
səni də elə sevdim.
Bir tutam göyqurşağı,
bir tutam quş qanadı
qarışdı sevdamıza, -
unudub bütün qorxularımızı,
uçduq, uçduq, uzaqlara ...

## ANONS

Allah da bilir
mənim çaşqınlığım
sizinkinə bənzəməz;
heyrətə gətirir məni
ağlınıza belə
gəlməyəcək şeylər:
məsələn,
irmağa minən balıq,
kürəyində
günəşi gəzdirən dağ,
sivri kürə,
ovurdu ovurdundan keçən qaya
və sarışın səmazənlər,
mavi günəbaxanlar,
Yox, mənim çaşqınlığım
sizinkinə bənzəməz...

Mənim marağım da
sizinkinə bənzəməz;
hərdən
uca bir yerə
çıxıb qışqırıram:
"Ey Yağmurquşu, Yağmurquşu,
söylə,
dəli irmaq
nə pıçıldayır
dənizin qulağına?"
Yox, mənim marağım
sizinkinə bənzəməz...

Mənim savaşım da
sizinkinə bənzəməz;
Əlimdə yalın qələm
dayanaram kəlam qapılarında -
ya Simurq quşu gəlsin,
ya da Əzrayıl -
fərq etməz.
Yox, mənim savaşım
sizinkinə bənzəməz...

Və qorxum...
Qorxum da
sizinkinə bənzəməz;
sıxlıqdan qorxaram,
tanınmaqdan qorxaram,
qırmızı işıqda
maşınların şüşələrini silən
uşaqların çarəsizliyindən
qorxaram
və ən çox da
yuxularımdan qorxaram.
Yox, mənim qorxum
sizinkinə bənzəməz...

## DÜŞÜNCƏ

Korəm mən,
gözümdə deyil:
gün uzundu, ya qısa...
İndiyə kimi
heç qarışmadım
Allahın işinə -
nəyimə lazımdı
nə qədər qırmızı,
nə qədər göy,
nə qədər sarı rəng
qatır çiçəklərə?
İndiyə kimi
heç qarışmadım
Allahın işinə...
O, torpaqdan
və nurdan yaradır
yaratdıqlarını,
mən səsdən:
ağac səsindən - ağac,
quş səsindən - quş,
insan səsindən - insan,
su səsindən - su,
külək səsindən - külək...
İndiyə kimi
heç qarışmadıq
bir-birimizin işinə -
Onun yaratdıqlarını
susuzluq qurudur,
mənim yaratdıqlarımı qaranlıq...

## SƏN VARKƏN...

Sular
qaldıra bilməsin
gəmimizi,
düşək,
piyada gedək
dənizin üstü ilə.
Yuxu tutsun -
yarı yolda qalsın
bizə göndərilən bahar.
Sən varkən
çiçəklər niyə açmasın ki?..

Hüzn
kəssin ayağını
ürəyimizdən,
Həyat
götürsün yumruqlarını
üzümüzdən...
İlməsi qaçmış
bu həyat bizim;
dostdumu,
düşməndimi
alnımızdan
öpmək üçün
arxamızca düşən?..
Bizəmi qalıb
qalası yıxılmış
şəhərin kədəri,
Bizəmi qalıb
bu mirət macəra?
Bizəmi qalıb
çaşqınlığın ovcunda
büllur quş kimi çırpınmaq?
Bizəmi qalıb
yazağzı
torpağa diri-diri gömülmüş
irmaqların yalnızlığı?

Sən varkən...
Sular
qaldıra bilməsin
gəmimizi,
düşək,
piyada gedək
dənizin üstü ilə.
Yuxu tutsun -
yarı yolda qalsın
bizə göndərilən bahar.
Sən varkən
çiçəklər niyə açmasın ki?..

* * *

Təbəssüm... sən nə gözəl şeysən,
nə qədər naz etsən də
bir gün gəlirsən...

Budaqdan qopan
bir yarpağa
bağladım həyatımı,
Olsun artıq, deyirəm,
nə olacaqsa...
Eşq deyir,
başqa bir şey
demir qəlbim,
Bu necə sevdadı ki,
həm qədim,
həm də meyxoş alma dadındadı.

Dağları da qoysam
ayağımın altına,
Ey eşq,
yenə də yetişə bilmirəm
çiyinlərinə,
çünki
mənimlə danışarkən
pəncələri üstə qalxır dünya.
Üstüaçıq
araba imiş həyat,
aldatdı məni,
ağzı dad bilməsin...

Göy qayalıq kimi
üstümə gəlir göy üzü,
əlim qırılsın,
bir də toxunsam günəşinə.
Yaralı sərçə,
mənim üçün dua et, dua et,
göy qayalıq kimi
üstümə gəlir göy üzü...

Uşaq deyiləm,
bilirəm nədi
itin daşdan qorxması,
Amma
yenə də
bir yastıq istəyirəm
quş səsləri ilə dopdolu...

Dünya
silinmiş bir xəritədi -
şəhərlər hardadı,
dənizlər hardadı,
sən hardasan?
Bəlkə yuxudasan -
min ildi, milyon ildi...
Sənə demədimmi
öpücüklə oyanmağa
vərdiş etmə...

## SEVGİLİ

Hava çox qapalı, əlim göylərdə,
Dualar damır yarpaqlarıma.
Ceyran dərisitək bir ozan səsi
Axır ürəyimdən dodaqlarıma...

## DİLƏNÇİ

Ey insan,
səndən küsdüm,
çünki məni
bir azdan güllələnəcək
bir məhkum kimi
ölüm limanında
tərk edib getdin...
İndi soruşuram:
məsələn, Samatyada
hansı bağça
ölümdən daha böyükdür?

* * *

Heç bir şeyi tək yemə
deyən sahabənin sözünə
qarışqalar
əməl edir ancaq.
İnsanın insan gözəliysə
durmadan
solur,
solur, bax...

## SÖZÜMÜ KƏSMƏ

Çaşqınlığımı gizləməyə
bir şey tapmadım
şeirdən başqa.
Görəsən,
rəbbim buna necə baxır?
Məsciddən
dönənlərin
içini bir fərəh bürüyür,
bu, təkcə möminlərəmi aiddir?
Şeir də ibadət deyilmi?

Nə gözəldi
söz-söz şeirə axmaq,
Nə gözəldi
aynaya baxarkən
dua oxumaq:
"Allahım,
gözəl yaratdın məni,
əxlaqımı da
gözəl eylə namaz kimi..."

Canımı yandırır
dünyanın gözəlliyi...
Ömür yetmir o böyük Şeirə...
Rəbbim, nə olar,
sözümü kəsmə!..

*Hazırladı:*
**DİLSUZ**



Ədəbiyyat qəzeti.- 2017.- 20 may.- S. 17.